## Azərbaycanda qədim «İncil» tapılıb

Zaqatala Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, tarixçi etnoqraf Cahangir Soltanovun «APA» informasiya agentliyinə verdiyi məlumata görə, Zaqatalada bu ilin may ayında baş verən zəlzələ nəticəsində qəzalı vəziyyətə düşən evlərdən birinin dağıntıları arasından XIX əsrdə nəşr edilmiş «İncil» kitabı aşkar edilib: «Zaqatalada xristianların müqəddəs kitabı olan «İncil»in tapılması o qədər də təəccüb doğuran bir məsələ deyil. Çünki burada bir neçə əsr xristianlığa etiqad edən rus, polyak və s. icmalar kompakt halda yaşayıblar. Yeni tapıntıda diqqəti cəlb edən odur ki, İslama etiqad edən Zaqatala sakini müqəddəs «İncil»i dağıntılar arasından çıxararaq toz-torpağını təmizləyib və böyük bir ehtiramla Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edib.

Digər tərəfdən, bu fakt Azərbaycanda tolerantlıq ənənələrinin hansı səviyyədə olmasını göstərən ən yaxşı nümunələrdən biri kimi təqdim olunmalıdır. Unutmaq olmaz ki, Zaqatala bölgəsində tolerantlıq ənənələrinin tarixi yetərincə qədimdir və bu, Avropadan bu bölgəyə gəlmiş səyyahları həmişə heyrətə gətirib. 1877-ci ildə Zaqatala şəhərində olmuş fransız səyyah qadın Karla Serena «Mənim səyahətim» adlı əsərində Zaqataladakı tolerantlıq ənənələrini bu sözlərlə ifadə edib: «Burada İsa mənsubları və Məhəmməd ümməti birgə yaşayırlar. Son dərəcə heyrətamiz bir təzaddır».